**UOT 008(100)**

*Gözəl Tağısoy Kılavuz*
**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universitetinin dissertantı**
**AZ-1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**E-mail:** gozal91taghisoy@gmail.com

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN MƏDƏNİ-SİYASİ ASPEKTLƏRİ

**Xülasə**: Məqalədə çağdaş dövr Azərbaycan-Türkiyə əlaqələrinin mədəni-siyasi aspektlərindən bəhs edilir. Heydər Əliyevin Türkiyənin dövlət rəhbərləri ilə görüşləri və iki ölkə arasında imzaladığı sənədlər tarixi faktlar əsasında araşdırılır. Heydər Əliyevin qarşılıqlı tələbə mübadiləsinə verdiyi töhfələr nəzərdən keçirilir. Habelə, məqalədə Azərbaycanla Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələrinə dair Heydər Əliyevin fikirləri yer alır.

**Açar sözlər:** Türk Dünyası, Heydər Əliyev, Azərbaycan, Türkiyə, mədəniyyət

Tarixi prosesləri və siyasi-ideoloji amilləri nəzərə almadan Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı mədəniyyət əlaqələrinin araşdırılması tarixi həqiqətlərin saxtalaşdırılmasına yol açmış olar. Təbii ki, tarixən eyni milli-mənəvi, dini köklərə bağlı olan bu iki türk xalqı arasındakı mədəni əlaqələrin kökü çox-çox uzaqlara gedir. Eyni zamanda bu təkzibedilməz bir faktdır ki, "sınaqlardan çıxmış qardaşlığı sarsılmaz və əbədi olan Türkiyə və Azərbaycan xalqları dili, dini, adət-ənənəsi eyni olan böyük türk millətinin övladları" (9, s.51), "müxtəlif isimlər daşıyan böyük Türk ağacının bir budağıdır". Həm türkiyəlilər, həm də "azərbaycanlılar milliyyət etibarı ilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər" (8, s.12). Ümummilli lider Heydər Əliyev deyirdi ki, Azərbaycan və Anadolu türkləri əsrlər boyu "bir-biri ilə sıx əlaqədə olmuş, bir-birinə kömək etmiş, arxa durmuşlar. Məhz buna görə də heç təsadüfi deyil ki, Azərbaycanın bir çox görkəmli şəxsiyyətləri tarixin ayrı-ayrı mərhələlərində Türkiyədə fəaliyyət göstərmiş, orada öz istedadlarını tamamilə büruzə verə bilmişlər, həm Türkiyə xalqı qarşısında, həm də Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişlər. Onların hamısı bizim dostluğumuzun, qardaşlığımızın böyük tarixidir, rəmzidir. Biz onlarla fəxr edə bilərik" (3).

Tarixi şəraiti vaxtında dəyərləndirən Heydər Əliyev 90-cı illərdə belə bir obyektiv gerçəkliyi bəyan edirdi ki, dövlətlərimizin sıx, bərabərhüquqlu və səmərəli əməkdaşlığı zamanın hökmüdür, bizim əvvəlki tariximizdən və müasir siyasi və iqtisadi proseslərin gedişindən irəli gələn qaçılmaz bir zərurətdir. Yeni minilliyin astanasında ölkələrimizi nəinki tarixi köklər, adət və ənənələr, həm də dövlətlərimizin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsi, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsi kimi ümummilli mənafelər birləşdirir (7, s.156). O, xüsusilə vurğulayırdı ki, Türkiyə ilə Azərbaycanın mədəni əlaqələrinin mərkəzində qardaşlığımız və strateji müttəfiqliyimiz durur. Mədəni irsimizi öyrənmək üçün araşdırmalar aparılır, müntəzəm olaraq hər iki ölkədə konqreslər, simpoziumlar, festivallar, keçirilir, kitablar çap olunur (7, s.160).

Heç şübhəsiz, iki qardaş ölkə arasındakı mədəni əlaqələrin çağdaş mərhələsindən söhbət getdiyi təqdirdə sovet dövrü də mütləq diqqətə alınmalıdır. Çünki Azərbaycanınən yeni tarixinə dair mənbələrdən də aydın olduğu kimi sovet dövründə beynəlxalqhüququn subyekti olmayan Azərbaycan beynəlxalq əlaqələrdə mərkəzi hökumət vasitəsi ilə iştirak edirdi. SSRİ hökuməti Azərbaycanın xarici ölkələrlə birbaşa siyasi və ticarət- iqtisadi əlaqələrinə imkan vermirdi. İkinci dünya savaşından sonrakı ilk onilliklərdə Azərbaycanın xarici ölkələrlə əlaqələrinə icazə, əsasən mədəni sahələrdə verilirdi. Lakin bu əlaqələr də Moskvanın ciddi nəzarəti altında həyata keçirilirdi. Daha doğrusu, 1946- 1990-cı illərdə Azərbaycan Respublikası yalnız SSRİ tərkibində beynəlxalq mədəni əlaqələrin iştirakçısı ola bilirdi. Bu illərdə Sovet İttifaqını təşkil edən müttəfiq respublikalardan biri kimi Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin həyata keçirilməsinin hüquqi-siyasi əsasını SSRİ-nin xarici ölkələrlə bu sahəyə aid bağladığı müqavilə, saziş və protokollar təşkil etdi. SSRİ 1970-1980-ci illərdə Türkiyə və bir sıra başqa dövlətlərlə mədəni əlaqələrə dair çoxlu sənədlər imzaladı. Həmin sənədlərdə mədəni əlaqələrin formaları və həyata keçirilməsi prinsipləri müəyyən edildi. Mədəni əməkdaşlıq məsələləri 1946-1990-cı illərdə Sovet İttifaqının xarici ölkələrlə münasibətlərində müzakirə obyektlərindən biri oldu. Beynəlxalq mədəni əlaqələr problemi çoxtərəfli əsasda, o cümlədən Avropada təhlükəsizlik və əməkdaşlıq (2, s.454, 461) məsələlərinə dair Helsinki (1975-ci il), Madrid (1983-cü il), Vyana (1989-cu il) və Paris (1990-cı il) müşavirələrinin yekun sənədlərində öz əksini tapdı. Bu sənədlərdə dövlətlərarası münasibətlərdə mədəni əlaqələrin yeni formaları müəyyən edildi və əhəmiyyəti göstərildi.

80-ci illərin ortalarından başlayaraq isə Azərbaycan xarici ölkələrlə mədəni əlaqələrə dair birbaşa sazişlər bağladı. 1990-cı ilin yanvarında Azərbaycanla Türkiyə Respublikası arasında mədəni və elmi əməkdaşlığa dair protokol imzalandı. Protokolda iki respublika arasında mədəni əməkdaşlığı genişləndirməyin yolları və formaları müəyyənləşdirildi. Bu mərhələdə ölkədə başlanmış olan yenidənqurma adlandırılan siyasət respublikaların hüquqlarının genişləndirilməsinə gətirib çıxartdı. Respublikanın beynəlxalq mədəni əlaqələrini 30-a yaxın nazirlik, idarə, təşkilat, cəmiyyət və s. həyata keçirirdi. Bunların içərisində Respublika Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti xüsusilə fəal idi.

Azərbaycanın beynəlxalq mədəni əlaqələrdə iştirakı əsasən aşağıdakı formalarda həyata keçirilirdi: ədəbi əlaqələr, kitab çapı, kitab mübadiləsi, kitab sərgi və yarmarkaları, yazıçı, şair və jurnalistlərin əməkdaşlığı, musiqi, teatr, kino, televiziya, radio sahəsində əməkdaşlıq, rəssamların sərgi və yarmarkalarda iştirakı, ictimaiyyətin əlaqələri, mədəniyyət günləri, qardaşlaşmış şəhərlər, idman və turizm. Hələ o vaxtlar Azərbaycan

milli musiqisi, dramaturgiyası, opera və balet incəsənəti, kinosu, simfonik, vokal-instrumental ansamblları xaricdə məşhur idi. Təbii ki, mədəni əlaqələrin bu formalarının hamısı eyni səviyyədə həyata keçirilmirdi. Çünki həm bu əlaqələrin qurulmasında və həm də həyata keçirilməsində xeyli nöqsanlar var idi. Bunların bir qismi mərkəzin müvafiq təşkilatlarının üzərinə düşürdü. 1980-1990-cı illərdə Azərbaycan dünyanın 120 ölkəsində mövcud olan 860-dan çox təşkilatla mədəni əlaqə saxlayırdı. Başqa sahələrdə olduğu kimi Azərbaycanın mədəniyyət sahəsində də sosialist, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə beynəlxalq əlaqələri geniş xarakter almışdı (2, s.463). Hər il Azərbaycan mədəniyyətinin yüzlərlə nümayəndəsi, onlarla bədii kollektivi, aktyor qrupları xaricə gedir, təxminən qeyd olunan qədər də xarici dövlətlərin mədəniyyət işçisi Azərbaycana gəlirdi.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş Konstitusiya aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa olundu. Müstəqilliyin bərpası Azərbaycanın müasir beynəlxalq münasibətlərdə iştirakı üçün əlverişli şərait yaratdı. Bu şəraitdən istifadə edən Azərbaycan Respublikası müasir dünya reallıqlarını və xalqın milli mənafelərini nəzərə alıb fəal xarici siyasət yeritməyə başladı. Artıq XX əsrin sonlarına doğru dünyanın siyasi xəritəsində yeni türk dövlətlərinin yaranması siyasi, iqtisadi münasibətlərlə yanaşı, mədəni əlaqələri də intensivləşdirdi. Nailiyyətlərin daha çox məhz mədəniyyət və incəsənət sahələrində əldə olunması təsadüfi deyildi. Belə ki, dili, dini, tarixi kökləri, adət-ənənələri bir olan xalqların qarşılıqlı münasibətləri uzun müddət əngəllənsə də, yeni mərhələdə bu tendensiya aradan qalxdı. Əgər müstəqilliyin ilk illərində yeni yaranmış türk dövlətlərinin Türkiyə ilə münasibətlərində obyektiv və subyektiv amillərdən qaynaqlanan ehtiyatlılıq hiss olunurdusa, bu, mədəniyyət əlaqələrinin dirçəlişinə şamil edilməməlidir. “Türkiyə təbii istəkdən irəli gələn mədəniyyətlərin yaxınlaşması, ümumtürk dəyərlərinin yenidən dirçəldilməsi, sovet elm, təhsil və mədəniyyət sisteminin müasir standartlarla yeniləşməsi, müstəqil dövlətlərin yeni ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirdi. Məqsədyönlü fəaliyyətproqramları nəticəsində bütöv Türk Dünyasının mədəni inteqrasiyasında tamamilə yeni, lakin təbii təməllərə, xalqlarımızın tarixi və milli-mənəvi dəyərlərinə bağlı olan bir mədəni mənzərə müşahidə edilməyə başlandı” (7, s.156). Beləliklə, dünyada gedən qloballaşma və qarşılıqlı əlaqələrin intensivləşməsi fonunda türk ölkələri arasında mədəniinteqrasiyanın əsası qoyuldu.

Bu mənada Azərbaycanın beynəlxalq münasibətlərində Türkiyə xüsusi yer tuturdu. 90-cı ildən etibarən Azərbaycan-Türkiyə arasında elmi-texniki və mədəni əməkdaşlıq məsələləri də diqqət mərkəzində oldu. 1990-cı il yanvarın 10-da 1990-1992-ci illər üçün mədəni və elmi-texniki mübadilə barədə protokol (2, s.488), Azərbaycan Respublikası prezidentinin Türkiyəyə səfəri zamanı elmi-texniki və mədəni əlaqələrə dair iki ölkə arasında saziş imzalandı. 1991-ci il noyabrın 9-da Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət oldu. Müstəqilliyin ilk illərində imzalanan bu sənədlər tezliklə reallaşmağa başladı.

1992-ci ilin yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri rəsmiləşdi və həmin vaxtdan etibarən Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başladı. Diplomatik münasibətlərin yaradılması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafı baxımındangeniş perspektivlər açdı.

1992-ci ilin martında Türkiyə prezidenti Turqut Özalın Azərbaycana səfəri oldu. Həmin ildə Türkiyənin baş naziri Süleyman Dəmirəlin, xarici işlər naziri Hikmət Çətinin və Türkiyə Böyük Millət Məclisinin deputatlarının Azərbaycana səfərləri iki ölkə arasındakı çoxsahəli münasibətlərin inkişafına təkan verdi. Türkiyə prezidenti Turqut Özalın Azərbaycana 1992-ci il 1-3 may tarixli səfəri və səfər zamanı imzalanmış Birgə Bəyanat isə strateji əməkdaşlığın təməlini qoydu. "İki ölkə rəhbərləri arasında keçirilən görüşlər və Birgə Bəyanat qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivlərini müəyyən etdi. Hər iki dövlət qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq ardıcıl addımlar atmağa başladı" (6, s.565). Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərirdi.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkənin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqa- mətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Ankarada aparılan danışıqlardan sonra fevralın 9-da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı. Az sonra müstəqil "Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsasxüsusiyyətləri Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və prezident Heydər Əliyevin çıxışlarında" (6, s.220; 7, s.49) öz əksini dolğunluğu ilə tapdı. Bundan sonra dövlət rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri iki ölkə arasındakı münasibətlərin daha da inkişafı ilə müşayiət olundu. 1995-ci il dekabrın 7-9-da Türkiyə prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış Birgə Bəyanat və iqtisadi əməkdaşlıq haqqında memorandum dostluq münasibətlərini müəyyənləşdirən prinsiplərin və əlaqələrin inkişaf istiqamətlərinin sarsılmaz olduğunu bir daha təsdiq etdi.

Qeyd etmək lazımdır ki, Türkiyənin 1992-ci ildən "Türkdilli dövlətlər birliyi" yaratması və keçən illərdə region ölkələrinə 1,5 milyard dollar vəsait ayırması da bölgə ölkələrinin praqmatik siyasəti nəticəsində gözlənilən nəticəni vermədi. Lakin buna baxmayaraq, Türkiyə regionun kifayət qədər nüfuzlu, əhali arasında rəğbət qazanan ölkəsinə çevrilə bildi (6, s.560). SSRİ-nin mövcud olduğu və bugünkü türk-müsəlman xalqlarının hələ milli müstəqillik əldə etmədiyi dövrdə Qərb dövlətləri Türkiyənin Qafqazla, xüsusilə də Azərbaycanla bağlı siyasətini müəyyən qədər dəstəkləyir, təbii qəbul edir və bunu Türkiyənin güclənməsi, türk-müsəlman birliyinin real təhlükəsi kimi qiymətləndirmirdi. Əslində, SSRİ-nin bu qəbildən olan əhali qrupuna təsir göstərmək, həmin xalqları Moskvadan narazı salmaq və onlarla hansısa şəkildə iş aparmaq üçün Qərbin başqa imkanı da yox idi. Amma SSRİ-nin dağılması, müstəqil dövlətlərin yaranması ilə Qərb Türkiyənin bu dövlətlər və xalqlar arasında möhkəmlənməsinə, onları etnik-dini yaxınlıqdan istifadə edərək öz ətrafında birləşdirməsinə və beləliklə də, Avropada öz mövqeyini daha da gücləndirməsinə heç bir vəchlə yol verə bilməzdi. Odur

ki, Qərb dövlətləri Türkiyənin Qafqazda, Orta Asiyada "NATO-nun ümumi maraqlarını qorumaq" adı altında, vaxtilə dəstəklənən sərbəst və təkbaşına fəaliyyətini o qədər də qəbul etmirdi (6, s.562). Bütün bu siyasi amillərə baxmayaraq, 1995-ci ildə Türkiyənin baş naziri T.Çillər, xarici işlər naziri Ə.İnönü, Energetika naziri V.Atasoy, əmək və sosial təminat naziri M.Kul Azərbaycana səfər etdilər. Türkiyə prezidenti Süleyman Dəmirəl səfəri zamanı Milli Məclisin iclasında çıxış etdi, qaçqınlarla, ictimaiyyətin nümayəndələri, iş adamları ilə görüşdü. Bu zaman birgə bəyanat verildi, televiziya yayımları haqqında əməkdaşlıq müqaviləsi imzalandı, iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiqi və qüvvəyə minməsi barədə notalar mübadiləsi edildi. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Respublikası, Türkmənistan, Türkiyə və Özbəkistan respublikalarının mədəniyyət nazirlərinin 8 maddədən ibarət "TÜRKSOY-un strukturu və fəaliyyət prinsipləri haqqında müqavilə"ni imzalamaları (12 iyul, 1993) türk dünyasının mədəni əlaqələri baxımından çox əlamətdar bir hadisə oldu. Məqsədi türk xalqları və ölkələri arasında mədəni əlaqələri genişləndirmək, xalqların mədəniyyət və incəsənətini qorumaq, dirçəltmək və inkişaf etdirmək olan TÜRKSOY-un yaranması ölkələrimiz arasındakı mədəni əməkdaşlığa mühüm təkan verdi. Eləcə də Azərbaycan dövləti çoxtərəfli əsasda türk dövlət başçılarının zirvə görüşünün yaradılmasının iştirakçısı oldu. Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan dövlət başçılarının birinci toplantısı 1992-ci il oktyabrın 30-31-də İstanbulda keçirildi. Görüş nəticəsində bəyannamə imzalandı. Türk dövlət başçılarının ikinci toplantısı 1994-cü ilin oktyabrında İstanbulda keçirildi. Azərbaycanı, prezident Heydər Əliyev başda olmaqla nümayəndə heyəti təmsil edirdi. Görüşün sonunda İstanbul bəyannaməsi qəbul olundu. Bəyannamədə göstərilirdi ki, ölkələr beynəlxalq birlik tərəfindən qəbil olunmuş normalara hörmət və əməl edirlər, BMT və ATƏT prinsiplərinə sadiqdirlər, xalqları arasında dil, tarix, mədəniyyət sahəsində əlaqələri inkişaf etdirməyi zəruri sayırlar.

1995-ci ilin avqustunda Bişkekdə keçirilən türk dövlət başçılarının üçüncü zirvə görüşü türk dövlətləri arasında iqtisadi, elmi-texniki, mədəni, humanitar əməkdaşlığa kömək etdi. 1996-cı il oktyabrın 21-də Daşkənddə keçirilən türk dövlət başçılarının IV zirvə görüşündə isə Azərbaycan prezidenti Heydər Əliyevin iştirakı ilə Daşkənd bəyannaməsi imzalandı (2, s.518). 1998-ci il iyunun 9-10-da Qazaxıstanın Astana şəhərində keçirilən türk dövlət başçılarının beşinci zirvə görüşündə də Azərbaycan prezidenti iştirak etdi. 2000-ci ilin aprelində türk dövlət başçılarının altıncı zirvə görüşünün Bakıda keçirilməsi isə mühüm hadisə oldu. Zirvə görüşündə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev geniş nitq söylədi. Qardaş ölkələr arasında əməkdaşlıq məsələləri müzakirə edilərək Bakı bəyannaməsi qəbul olundu (2, s.519).

Hələ 5 yanvar 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin universitetlərinə tələbə qəbulu haqqında sərəncam imzalamış və həmin ilin 7 fevralında Türkiyənin ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrin bir qrupu ilə görüşərək tarixi nitq söyləmişdir. Bu dövrdə Azərbaycanla Türkiyə arasında iqtisadiyyat, səhiyyə, maliyyə, təhsil, mədəniyyət və digər sahələrdə qarşılıqlı əməkdaşlıq haqqında 16 müqavilə imzalanmış (1, s.61) və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İstanbul ali məktəblərində təhsil alan azərbaycanlı gəncləri qəbul etmişdir (1, s.160). Heydər Əliyev 16 yanvar 2001-ci ildə prezident sarayında TÜRKSOY təşkilatının toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul etdi. Fevralın 27-də isə Ankara Universitetinin Elmi

Şurası, son dərəcə müdriklik tələb edən vəzifəsində türk dostu kimi hər zaman Türkiyəni dəstəkləyən və hər vasitə ilə Türkiyənin beynəlxalq aləmdəki önəmini ifadə edən, daim "Bir millət, iki dövlət" olaraq gördüyü Türkiyə və Azərbaycan arasındakı dostluğun inkişafı, iki ölkə arasındakı qardaşlığın strateji müttəfiqliyə çevrilməsi sahəsindəki xidmətlərinə, böyük dövlət adamı keyfiyyətinə və təcrübəsinə malik olduğuna, Azərbaycanda və dünyanın ən qarışıq bölgələrindən biri olan Qafqazda sabitliyin bərqərar olması nəticəsində ölkəsinin və bölgənin Avropa ilə inteqrasiyası sahəsində əldə etdiyi uğurlara görə Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində fəxri doktor adı verilməsi barədə 1742 saylı qərarı yekdilliklə qəbul etdi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 2001-ci ilin 9 martında Azərbaycanda Atatürk Mərkəzinin yaradılması ilə əlaqədar sərəncam imzalamış (1, s.160) və martın 13-də TBMM üzvləri qarşısında geniş nitq söyləmişdir. Heydər Əliyev nitqində bəyan etmişdir ki, "Ötən illər bizim ölkələrimiz, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri artmaqda davam edir. Biz artıq Türkiyə-Azərbaycan strateji tərəfdaşlıq əlaqələri səviyyəsinə gəlib çatmışıq. Bu, dövlətlərarası əlaqələrdir. Ancaq xalqlarımız arasındakı əlaqələrin tarixi də çox böyükdür və onun qiyməti də bundan artıqdır. Çünki biz eyni köklərə mənsub olan xalqlarıq. Eyni milli-mənəvi dəyərlərə, eyni dilə, eyni dinə mənsub olan xalqlarıq. Biz hamımız bir kökdən gəlirik. Ona görə də bizim hamımızın fikri, zəkası bu köklərlə bağlıdır. Biz Azərbaycanda xalqlarımızın mənsub olduqları bu kökləri, milli-mənəvi dəyərləri yüksək qiymətləndiririk və bu dəyərlərə, bu tarixə daim sadiq olduğumuzu mən bir daha bəyan edirəm" (1, s.166).

Bu gün Azərbaycanla Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günü-gündən möhkəmlənir, genişlənir və heç şübhəsiz, bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir. Heydər Əliyevin də dönə-dönə vurğuladığı kimi, "heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır... Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı günü-gündən möhkəmlədək və yüksəklərə qaldıraq" (4, s.45; 7, s.19) Mədəni əlaqələrimizə böyük töhfələr bəxş etmiş Heydər Əliyev deyirdi ki, "Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir... Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımı səviyyədə inkişaf etdirilsin. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır" (5, s.339). Azərbaycan-Türkiyə mədəni əlaqələrinin ana xəttini təşkil edən və həmin əlaqələrin perspektivlərini müəyyənləşdirən bu qısa tarixi-xronoloji təqdimat da təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin bu sahədəki fəaliyyətləri müstəqilliyimizin bərpasından sonra iki ölkə arasında elmi-mədəni əməkdaşlığın bütün sahələrinə işıq salmışdır. Belə bir etibarlı və möhtəşəm təməl üzərində qurulmuş əlaqələri isə ümummilli liderin layiqli davamçısı İlham Əliyev inamlı surətdə davam etdirməkdədir.

## Ədəbiyyat:


1. Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev (1-ci kitab), 1991-2001. Bakı, Qafqaz Universiteti Nəşri, 2002.
2. Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr).Dərs vəsaiti. Bakı, ABU-nun "Beynəlxalq Universitet" nəşriyyat və poliqrafiya mərkəzi, "Təhsil" EİM, 2003.

3. Heydər Əliyev. 1996-cı il aprelin 15-də M.Ə.Rəsulzadə adına Bakı DövlətUniversitetində söylədiyi nitqindən. Xalq qəzeti, 16 aprel 1996-cı il.
4. Heydər Əliyev və Şərq, 6 cilddə, I kitab (Müəllif-tərtibçilər: Qaley Allahverdiyev,Vəhdət Sultanzadə). Bakı, "Tural–Ə" NPM, 2002, 384 s.
5. Heydər Əliyev və Şərq. 6 cilddə, III kitab: Türkiyə Cümhuriyyəti (Müəllif-tərtibçilər:Qaley Allahverdiyev, Vəhdət Sultanzadə). Bakı, "Çaşıoğlu", 2003, 472 s.
6. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: "Azərbaycan", nəşriyyatı, 2005.
7. Hüseynova F.İ. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji as- pektləri (elm, təhsil, mədəniyyət). Kul. üzrə fəl. dok. ... dissertasiya. Bakı, ADMİU, 2007.
8. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990.
9. Süleymanlı M.A.Azərbaycan-Türkiyə mədəni əlaqələrində M.Ə.Rəsulzadənin rolu. İncəsənət və memarlığın tədqiqat problemləri (EA Memarlıq və İncəsənət İnstitutunun nəşri). Bakı, "Çaşıoğlu", 1999, s.51-55.

**Гезаль Тагысой КылавузГейдар Алиев и культурно-политические аспекты международных отношений между Азербайджаном и Турцией**

**Резюме**

В статье исследованны культурно-политические аспекты международных отношений между Азербайджаном и Турцией. Описанны встречи ГейдараАлиева с лидерами Турции. Проанализированны исторически значимые документы, подписанные между двумя странами.Кроме того, в статье изложены высказывания Гейдара Алиева о дружеских и братских отношениях между Азербайджаном и Турцией.

**Ключевые слова:** Тюркский мир, Гейдар Алиев, Азербайджан, Турция, культура

**Gozal Taghisoy KilavuzHeydar Aliyev and cultural and political aspects of international relations between Azerbaijan and Turkey**

**Summary**

The article examines the cultural and political aspects of international relations between Azerbaijan and Turkey. Heydar Aliyev's meetings with Turkish leaders are described. The historically significant documents signed between the two countries are analyzed. In addition, the article contains the statements of Heydar Aliyev about the friendly and fraternal relations between Azerbaijan and Turkey.

**Keywords:** Turkic world, Haydar Aliyev, Azerbaijan, Turkey, culture

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.03.2019 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.03.2019Məqalənin çapa qəbul olunma tarixi: 19.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfədoktoru, dosent Sədaqət Əliyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**